# ŞAHDƏNİZ 2 LAHİYƏSİ

***"Bu gün 17.12.2013 müasir Azərbaycanın tarixində tarixi gündür". Azərbaycan Prezidenti İlham Əliyev çərşənbə axşamı Bakıda "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi üzrə yekun investisiya qərarının imzalanması mərasimində deyib.Dövlət başçısının sözlərinə görə, "Şahdəniz 2" enerji layihəsi üzrə yekun investisiya qərarının qəbul edilməsi Azərbaycanın uzunmüddətli uğurlu iqtisadi inkişafını təmin edəcək.Azərbaycan Prezidenti bildirib: ""Şahdəniz 2" layihəsi dünyada ən iri enerji layihəsidir.***



Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi, bu tarixi layihəyə cəlb olunmuş ölkələr və şirkətlər arasında geniş beynəlxalq əməkdaşlıq layihəsidir".Dövlət başçısı 19 il əvvəl - Azərbaycanın enerji strategiyasının həyata keçirilməyə başladığı 1994-cü ildə baş verən hadisələri xatırlayıb.Azərbaycan Prezidentinin sözlərinə görə, ümummilli lider Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi sayəsində müstəqilliyin əldə edilməsindən cəmi üç il, Azərbaycanda vətəndaş müharibəsinin başa çatmasından bir il və Ermənistanla atəşkəs rejimi haqqında razılığın əldə olunmasından dörd ay sonra Azərbaycan əcnəbi tərəfdaşlarla birgə "Əsrin müqaviləsi"ni imzaladı. Bu müqavilə ilk dəfə olaraq Xəzər regionunu xarici investisiyalar üçün açdı və Azərbaycanın uğurlu iqtisadi inkişafını təmin etdi.Prezident İlham Əliyev bildirib ki, bu, 20-ci əsrin müqaviləsi idi. Dövlət başçısının sözlərinə görə, "Şahdəniz" layihəsi,



çox güman ki, 21-ci əsrin layihəsi adlandırılacaq: "Lakin bugünkü mərasimə qədər müstəqil Azərbaycanın inkişafı tarixində bir neçə vacib mərhələ olub. 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi layihəsi üzrə müqavilə imzalandı. Daha sonra, 1999-cu ildə Qara dənizlə Xəzər dənizini birləşdirən və Bakıdan Gürcüstanın Qara dəniz sahillərinədək uzanan ilk boru kəməri inşa edildi".Dövlət başçısı qeyd edib ki, daha sonra - 2006-cı ilin mayında Bakı-Tbilisi-Ceyhan boru kəməri istismara verildi: "Bu kəmər ilk dəfə olaraq Xəzər regionunu beynəlxalq bazarlarla, o cümlədən Aralıq dənizi bazarları ilə birləşdirdi. 2007-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən və "Şahdəniz 2" layihəsinin bir hissəsi olan Cənubi Qafqaz qaz kəməri tikildi".Prezident İlham Əliyevin sözlərinə görə, 2011-ci ildə Azərbaycan və Avropa İttifaqı strateji enerji əməkdaşlığına dair memorandum imzaladı ki, bu sənəd Azərbaycanın enerji strategiyasının inkişafına kömək etdi, enerjinin şaxələndirilməsini və Avropaya qaz ixracını təmin etdi: "2012-ci ildə biz Türkiyə ilə Trans Anadolu qaz kəməri - TANAP üzrə tarixi saziş imzaladıq. Bu il, 2013-cü ildə Trans Adriatik boru kəməri (TAR) əsas ixrac marşrutu kimi seçildi və indi biz "Şahdəniz 2" üzrə yekun investisiya qərarını imzalayırıq"Bunuda qeyd etmək lazimdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak etmişlər.



## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

### DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



### DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

### DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

# Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

Heydər Əlirza oğlu Əliyev



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Azərbaycan inkişaf etmiş dövlətlər sırasında

***Dövlət başçısı Bakı Dövlət Universitetinin 90 illik yubileyi ilə bağlı keçirilən təntənəli mərasimdəki çıxışında bununla bağlı demişdir: "Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Müxtəlif hesablamalara görə, Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir. Mən hesab edirəm ki, artıq bu sahədə keçid dövrü başa çatıbdır.***



Dünya İqtisadi Forumu - dünyanın ən mötəbər qurumlarından biri olan bu təşkilat rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı dünya miqyasında 51-ci yerdə görür və bütün MDB məkanında biz bu sahədə birinci yerdəyik. Dünya Bankının hesablamalarına görə, Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı. Bu, bir daha onu göstərir ki, bizim uğurlarımızın əsas səbəbi ölkədə aparılan siyasi və iqtisadi islahatlardır".

Şübhəsiz, dövlət başçısının iqtisadi sahədə keçid dövrünün yekunlaşması ilə bağlı bəyanatı ölkənin son 15 ildə keçdiyi sürətli inkişafın və davamlı islahatların məntiqi yekunu sayıla bilər. Dövlət başçısı cənab İlham Əliyevin son 15 ildə uğurla davam etdirdiyi sosial-iqtisadi islahatların praktik nəticələri Azərbaycan üçün hələ ötən əsrin 90-cı illərinin əvvəlindən başlanmış mürəkkəb ictimai-iqtisadi formasiya dəyişkənliyi mərhələsinin artıq geridə qaldığını deməyə ciddi əsaslar verir. Söhbət iqtisadi sahədə keçid dövrü üçün zəruri qanunverici, institusional, maddi-texniki bazanın formalaşdırılması prosesinin yekunlaşmasından gedir. Son 20 ildə iqtisadiyyatın inkişafı üçün yeni qanunlar qəbul olunmuş, özəlləşdirmə prosesi, vergi, torpaq, gömrük islahatı əsasən başa çatmış, infrastrukturun yeniləşdirilməsi keyfiyyətcə yeni mərhələyə adlamış, güclü yanacaq-energetika və neft sənayesi formalaşmış, sahibkarlığın milli inkişafda rolu artmış, sosial problemlərin böyük qismi həllini tapmış, respublikamızın dünya iqtisadi-təsərrüfat sisteminə inteqrasiyası təmin olunmuş, Azərbaycan özü və bölgə dövlətləri üçün etibarlı enerji təhlükəsizliyi sistemi yaratmışdır. Sovet dövründən qalmış idarəetmə sistemi tamamilə yeniləşmiş, müasir dövrün tələbi ilə səsləşən yeni dövlət qurumları yaradılmış, bir sözlə, struktur islahatları uğurla yekunlaşmışdır. Bu gün milli iqtisadi inkişaf modeli ilə tanınan Azərbaycan sovet dövründən qalmış köhnə infrastrukturdan tamamilə azad olaraq iqtisadi-mədəni səviyyədə modernləşir, ölkənin hər bir guşəsində müasir tələblərə cavab verən abadlıq-quruculuq işləri aparılır. Bütün bunlar isə məhz iqtisadi sahədə keçid dövrünün geridə qaldığını əminliklə söyləməyə ciddi əsaslar yaradır.

Dövlət büdcəsi isə Azərbaycanın keyfiyyətcə yeni mərhələdə davamlı inkişafı üçün yaxşı imkanlar açır. Büdcə layihəsi hazırlanarkən dövlətin inkişafı üçün elmi əsaslar üzərində müəyyən edilmiş strateji xəttə uyğun olaraq dövlət büdcəsinin sosial və investisiyayönümlülüyünün təmin edilməsinə, əhalinin aztəminatlı təbəqəsinin sosial təminatının gücləndirilməsinə, ölkənin müdafiə potensialının, iqtisadi, enerji, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, sahibkarlığın inkişafına dəstək verilməsinə, qəbul olunmuş məqsədli dövlət proqramlarının maliyyələşdirilməsinə xüsusi diqqət yetirilmişdir.

Ötən dövrünün yekunları deməyə əsas verir ki, hökumət ötən illərdən başlanmış davamlı iqtisadi yüksəliş və tərəqqi kursuna əsaslanaraq makroiqtisadi sabitliyini qoruyub saxlamış, son dərəcə çətin bir şəraitdə nəzərəçarpacaq irəliləyişlərə nail olmuşdur. Ən əsası, ictimai-iqtisadi formasiya dəyişkənliyi fonunda hələ ötən əsrin 90-cı illərinin əvvəlindən planlı iqtisadiyyatdan liberal bazar münasibətlərinə keçid yönümündə həyata keçirilən kompleks tədbirlər sistemi uğurla yekunlaşmışdır. Başqa sözlə, respublikamız bazar iqtisadiyyatı üçün xarakterik olan bütün islahatları uğurla yekunlaşdıraraq keyfiyyətcə yeni mərhələyə - modernləşmə fazasına qədəm qoyur. Bu mərhələnin əsas vəzifəsi isə iqtisadiyyatın ənənəvi sahələrinin yeni dövrün tələblərinə uyğun, ən müasir texnologiyalar hesabına yüksəlişini təmin etmək, Azərbaycanı inkişaf etmiş dövlətlər sırasına çıxarmaqdır.

# Azərbaycanda həyatın bütün sahələri üzrə inkişaf hiss olunur



***1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbləri ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu ilə paralel olaraq müstəqil iqtisadi sistemin yaradılması və daha da inkişaf etdirilməsi istiqamətində düşünülmüş və uzaq hədəflərə istiqamət götürmüş geniş islahatlar kursu həyata keçirilməyə başlandı.***

Aparılan uğurlu iqtisadi islahatlar sayəsində iqtisadiyyatın müasir dövrün tələblərinə uyğun, bazar münasibətləri əsasında yenidən qurulması, sahibkarlığın inkişaf etdirilməsi, yeni infrastrukturların, maliyyə və vergi sisteminin formalaşdırılması, tarixdə ən mürəkkəb proses kimi xarakterizə olunan torpaq və aqrar islahatların aparılması, regionların ahəngdar inkişafı, yoxsulluğun aradan qaldırılması, insanlara öz potensialından sərbəst istifadə etmək və sahibkarlığa dəstək verməklə iqtisadiyyatın liberallaşmasının bərqərar olması üçün münbit zəmin hazırlanmış, müstəqil dövlətimizin təhlükəsizliyinin, eləcə də onun ən vacib elementlərindən olan iqtisadi təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamışdır.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və regionda real güc mərkəzinə çevrilməsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş iqtisadi islahatlar və bu gün də həmin siyasi və iqtisadi islahatlar kursunun Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində mümkün olmuşdur. Ümummilli liderin, "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir" fikri bir daha təsdiq edir ki, Heydər Əliyev milli iqtisadiyyatımızın inkişafına dövlət quruculuğunun çox mühüm tərkib hissəsi kimi hər zaman böyük önəm vermişdir.

Zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş iqtisadi strategiyanın bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi Azərbaycanın daha yüksək zirvələrə doğru inamla irəliləməsi üçün zəmin yaratmışdır. İqtisadi potensialın ildən-ilə güclənməsi, əhalinin maddi-rifah halının yaxşılaşdırılması, müxtəlif istiqamətlərdə genişmiqyaslı islahatların aparılması Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmış məqsədyönlü dövlət proqramlarının ana xəttini təşkil edir. 2003-cü ildən ötən dövr ərzində həyata keçirilmiş iqtisadi layihələr qarşıya qoyulmuş ali məqsədə real xidmətin bariz göstəricisidir.

Ötən dövr ərzində Azərbaycan iqtisadiyyatı yüksək sürətlə inkişafını davam etdirmişdir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində ölkəmiz son illərdə iqtisadi artım üzrə dünyada lider dövlətə çevrilmişdir. İqtisadiyyatın bütün sahələrində irimiqyaslı islahatların sistemli və düşünülmüş şəkildə davam etdirilməsi Azərbaycanı dünyanın ən islahatçı ölkəsi kimi tanıtmışdır.

Bu gün ölkəmiz regionun və dünyanın böyük iqtisadi layihələrinin təşəbbüskarına və əsas tərəfdaşına çevrilmişdir. Təbii ki, bütün bunlar Azərbaycan Prezidenti cənab İlham Əliyevin çox uğurla həyata keçirdiyi uzaqgörən siyasəti, sosial-iqtisadi inkişafın bütün sahələrini əhatə edən dövlət proqramları sayəsində mümkün olmuşdur. Ölkə Prezidentinin şəxsi təşəbbüsü və nəzarəti altında müasir dünya standartlarına cavab verən çoxsaylı sənaye, səhiyyə, təhsil müəssisələrinin, idman komplekslərinin, nəqliyyat, enerji və rabitə infrastrukturlarının, qaçqınlar üçün qəsəbələrin tikintisi, ölkəmizin abadlaşması və inkişafı ilə bağlı mühüm obyektlərin inşası, bu obyektlərin açılışı mərasimlərində şəxsən iştirakı, əhalinin həyat səviyyəsi ilə tanış olmaq üçün regionlara çoxsaylı səfərləri Azərbaycanın daha yüksək inkişafı və xalqımızın xoşbəxt gələcəyi naminə gördüyü işlərdəndir.

2008-ci ildə yenidən Prezident seçkilərində xalqımızın yekdilliklə cənab İlham Əliyevi ölkə Prezidenti seçməsi Azərbaycanda həyatın bütün sahələri üzrə inkişafa növbəti təkan vermiş oldu. Prezident İlham Əliyevin çox uğurlu, bənzərsiz fəaliyyəti xalqımızın öz seçimində yeganə, düzgün yol müəyyənləşdirdiyini və seçdiyini bir daha təsdiq etdi.

Prezident İlham Əliyevin çox uğurla davam etdirdiyi və inkişaf etmiş dünya ölkələrinin islahatlar praktikasından bəhrələnməklə həyata keçirdiyi praqmatik fəaliyyəti sayəsində son illər Azərbaycan iqtisadiyyatı sürətli inkişaf etməkdədir. Statistik məlumatların təhlili onu göstərir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin çox uğurlu, rəhbərliyi altında iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində əməli tədbirlər həyata keçirilmişdir. Qeyri-neft sektorunun, o cümlədən aqrar bölmənin inkişafında regionların sosial-iqtisadi inkişafına dair birinci dövlət proqramının misilsiz rolu olmuşdur. Bu proqram ölkəmizin iqtisadi inkişafında yeni mərhələnin başlanğıcını qoydu və regionların inkişafı dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri səviyyəsinə qaldırıldı.



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-cı ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

*İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.*

*1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.*

*1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olmuşdur.*

*MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur.*

*1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi dərəcəsi almışdır.*

*1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir.*

*1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışmışdır və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.*

*1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. "Heydər Əliyevin neft strategiyası"nın həyata keçirilməsində fəal iştirak etmişdir.*

*Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.*

*İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.*

*1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.*

*1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.*

*2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.*

*2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.*

*2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.*

*2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. O, 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır.*

*2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.*

*2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 % səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 2008-ci il oktyabrın 24-də vəzifəsinin icrasına başlamışdır.*

*Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.*

*Evlidir. Üç övladı, üç nəvəsi var.*

*Prezident Əliyevin təltif olunduğu orden, mükafat və fəxri adlar aşağıdakıları əhatə edir: Heydər Əliyev ordeni (Azərbaycan Respublikası), Beynəlxalq münasibətlər və sülh naminə İhsan Doğramacı mükafatı (Türkiyə), Rumıniya Ulduzu Ordeni (Rumıniya), Kral Əbdüləziz Ordeni (Səudiyyə Ərəbistanı Krallığı), Şərəf Ordeni (Gürcüstan), “Şərəf Legionunun Böyük Xaçı” Ordeni (Fransa), Şeyxülislam Ordeni (Azərbaycan Respublikası), Rusiya Pravoslav Kilsəsinin*



*“Prepodobnıy Sergiy Radonejskiy” birinci dərəcəli Ordeni, “Böyük Kordon” Şərəf Ordeni (Beynəlxalq Hərbi-İdman Şurası), MDB ölkələrin İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının “Şərəf Ordeni”, FİLA-nın Şərəf Zalının ən yüksək “İdman Əfsanəsi” ordeni, Polşa Respublikasının “Xidmətlərə görə” Böyük Xaç ordeni (Polşa), I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni (Ukrayna), "Mübarək əl-Kəbir" ordeni (Küveyt Dövləti), Yunanıstan parlamentinin Qızıl medalı (Yunanıstan), Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı, “Üç ulduz” ordeninin “Böyük xaç kavaleri” dərəcəsi, “Sadiq Xidmət” milli ordeninin Böyük Xaç ranqı (Rumıniya), “İsmoili Somoni” ordeni (Tacikistan).*

*Linkoln Universitetinin Fəxri Doktoru (ABŞ), Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin Fəxri Doktoru, L.N.Qumilyov – Avrasiya Milli Universitetin Professoru (Qazaxıstan), Bilkənt Universitetinin Fəxri Doktoru (Türkiyə), Vergilər üzrə Milli Akademiyanın Fəxri Doktoru (Ukrayna), Ploesti Neft və Qaz Universitetinin Fəxri Doktoru (Rumıniya), Milli və Dünya İqtisadiyyatı Universitetinin Fəxri Professoru (Bolqarıstan), Kyung Hee Universitetinin Fəxri Doktoru (Cənubi Koreya), İordaniya Universitetinin Fəxri Doktoru (İordaniya), Korvinus Universitetinin ictimai elmlər üzrə Fəxri doktoru (Macarıstan), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fəxri professoru (Rusiya Federasiyası), Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru (Ukrayna), Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru (Türkmənistan Respublikası), Bakı Dövlət Universitetinin Fəxri doktoru (Azərbaycan), Belarus Dövlət Universitetinin Fəxri professoru (Belarus Respublikası), Ankara Universitetinin Fəxri dokrotu (Türkiyə), Çukurova Universitetinin Fəxri Doktoru (Türkiyə).*



# Yüksək idarəçilik mexanizmi ölkəmizin inkişafında xüsusi rol oynayır

***Tarixin gedişinə təsir göstərən böyük siyasi liderlər irəli sürdükləri mütərəqqi ideyalarla xalqı öz ətrafında birləşdirməyə, hər bir addımda ictimai inam qazanmağa çalışmış, məhz bunun da sayəsində böyük uğurlara imza atmışlar. Fəaliyyətində daim ictimai mənafeni əsas götürən, xalqın dəstəyinə arxalanan siyasi lider konkret siyasi mərhələdə xalqın sabit inkişaf yolunu düzgün müəyyənləşdirmək, milli maraqları qorumaq əzmi ilə seçilir. Siyasətdə ictimai inam qazanmaq məramı demokratik dəyərlərin ön plana çıxdığı hazırkı "sürət əsri"ndə də qətiyyən aktuallığını itirmir. Hakimiyyəti millətə layiqli xidmət vasitəsi sayan və bunu əməli fəaliyyəti ilə sübuta yetirən liderlər milyonlarla insanın iradəsi əsasında dövlətə rəhbərlik şansını qazanırlar.***



Dövrun sərt sınaqlarından üzüağ çıxan Azərbaycan xalqı da taleyini hər zaman qəlbən inandığı, etimad göstərdiyi siyasi liderlə bağlamışdır. Müstəqil Azərbaycan yeni minilliyin başlanğıcında ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin ideyalarının layiqli davamçısı - cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu gələcəyə doğru inamla irəliləyir, bu yolda qarşılaşdığı müxtəlif maneələrə, çətinliklərə mətinliklə sinə gərir. Azərbaycanda demokratiyanın təntənəsi kimi tarixiləşən 2008-ci ilin 15 oktyabr seçkiləri də mahiyyət etibarilə xalqın cənab İlham Əliyevə dərin inam və etimadının əyani təsdiqinə çevrilmiş, ölkə vətəndaşları respublikada uğurla həyata keçirilən islahatlar kursunun davam etdirilməsi naminə ciddi siyasi iradə və qətiyyət nümayiş etdirmişlər.

Prezident seçkiləri bir qayda olaraq konkret zaman kəsiyində reallaşdırılan siyasətin ictimai rəy tərəfindən adekvat dəyərləndirilməsi prosesi kimi də xarakterizə edilir. Seçkilər ərəfəsində hakimiyyət xalqın və dövlətin mənafeyi naminə həyata keçirdiyi kompleks tədbirlər barədə hesabat verərək seçicilərin səsini qazanmağa çalışır. Bu mənada cənab İlham Əliyevin son seçkilərdəki möhtəşəm zəfəri ilk növbədə son 14 ildə ölkənin keçdiyi inkişaf yoluna verilən obyektiv ictimai qiymətdir. Dövlət başçısı ötən müddətdə konseptual əsasları ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş islahatları uğurla davam etdirmiş və yeni çalarlarla zənginləşdirmişdir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən 15 ildə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar onun daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev zaman baxımından o qədər də böyük olmayan bir müddətdə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir vətəndaşın marağına cavab verən, cəmiyyət həyatının müxtəlif sahələrində uğurlu nəticələrə yol açan çevik, qətiyyətli və düzgün qərarlar qəbul etmişdir. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü isə, şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir. Cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində son illər əldə etdiyimiz uğurlar məhz bu amilə əsaslanır. Siyasi illüziyalardan, populizmdən uzaq olması, problemlərə rasional mövqedən və real situasiyadan yanaşması, praqmatizmi və yüksək idarəçilik keyfiyyətləri cənab İlham Əliyevin yetkin və peşəkar siyasətçi portretini formalaşdırır. Bütün bu keyfiyyətləri dövlət başçısının malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial, işgüzarlıq, novatorluq və birləşdiricilik məziyyətləri tamamlayır.

Mübaliğəsiz demək olar ki, mövcud siyasi kursun ictimaiyyət tərəfindən birmənalı dəstəklənməsini təmin edən ən başlıca amil son beş ildə müstəqil Azərbaycanın əldə etdiyi misilsiz sosial-iqtisadi nailiyyətlərdir. Ötən müddətdə ölkənin davamlı və sabit inkişafı baxımından vacib amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmış, respublikamız iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri sırasına yüksəlmiş, sosial problemlərin aradan qaldırılması istiqamətində ardıcıl addımlar atılmış, Azərbaycan Avropa geosiyasi arealında həyata keçirilən qlobal layihələrin təminatçısına çevrilmişdir. Bu gün ikinci elə bir dövlət tapmaq çətindir ki, son 15 ildə ümumi daxili məhsulun artım tempinə görə dünyada lider mövqeyini qoruyub saxlasın, qısa müddətdə dövlət büdcəsinin vəsaitlərini 20 dəfədən çox artıra bilsin. Azərbaycan isə bunlarla yanaşı, həm də regionların sosial-iqtisadi inkişafına xidmət edən mühüm dövlət proqramlarını, fərman və sərəncamları uğurla icra etmiş, həyata keçirilən sosial infrastruktur layihələri nəticəsində bölgələrin siması dəyişmiş, sahibkarlığın inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, yeni iş yerlərinin açılması naminə sistemli addımlar atılmışdır.

# ƏSL SİYASƏT KONKRET, REAL İŞ GÖRMƏKDƏN İBARƏTDİR

***Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 15 illik inamlı fəaliyyəti onun Heydər Əliyev ideyalarının, sadəcə, davamçısı deyil, yeni zamanda, bu ideyaları yeni dövrün nəbzinə, zamanın ruhuna uyğun həyata keçirən, təkmilləşdirən qətiyyətli siyasi lider olduğunu təsdiqləmişdir.***



Liderlik xüsusiyyətinin xalqın mütləq əksəriyyəti tərəfindən qəbul edilmək, geniş siyasi spektrin inamını qazanmaq, beynəlxalq səviyyədə cərəyan edən proseslərə nüfuz etmək, cəlbedici və real ideyalarla, işlək proqramlarla cəmiyyəti ümumi rifah və tərəqqi naminə səfərbərliyə almaq kimi vacib məqamları özündə ehtiva etdiyini nəzərə alsaq, bu termini bütün kateqoriyalar üzrə cənab İlham Əliyevə şamil etmək olar. Siyasətə ideyaların reallaşdırılması vasitəsi kimi yanaşan və "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısı hakimiyyətə xalqa təmənnasız xidmət vasitəsi kimi yanaşmış, hər bir fərdin maraq və mənafeyini uca tutmuşdur.

Mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifədə xalqın ona bəslədiyi ümidləri tam doğrultmuşdur. Yüksək siyasi iradəsi, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi, milli maraqlara sadiqliyi, praqmatizmi, təvazökarlığı və sadəliyi cənab İlham Əliyevi dövlət rəhbəri olaraq xalqa sevdirən, şəxsiyyətinə yüksək rəğbət və etimad formalaşdıran xarakterik cizgilər sırasında xüsusi vurğulanmalıdır.

Ümumiyyətlə, son 15 il ərzində sosial-iqtisadi sahələrdə müsbət göstəricilərin əldə edilməsinin, ölkənin tərəqqi və dinamik inkişaf yolu keçməsinin ən mühüm səbəbi yuxarıda sadaladığım keyfiyyətlərə malik Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəqiq sosial-iqtisadi strategiya əsasında qarşıda duran hədəfləri düzgün müəyyənləşdirməsi ilə bağlıdır. Elə buna görə də möhtərəm dövlət başçımızın həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda mühüm amil olan icimai-siyasi sabitlik, vətəndaş sülhü və həmrəyliyi qorunub saxlanılmış, cəmiyyətin ümumi potensialının ümummilli məqsədlər naminə səfərbər olunması inkişaf prosesində yüksək dinamizmi təmin etmişdir. Dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi əsaslara söykənən fundamental qərarlar, xalqın mənafeyinə uyğun sosial-iqtisadi siyasət, çevik idarəçilik mexanizminin formalaşdırılması, diplomatik münasibətlərdə balanslaşdırma prinsipinin qorunması, vətəndaşlarımızın rifahı naminə mövcud imkanlardan maksimum səmərəli istifadə dövlət başçımızın 15 illik prezidentlik fəaliyyətini səciyyələndirən xarakterik xüsusiyyətlər kimi mühüm əhəmiyyətə malik olmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyev yüksək siyasi qətiyyət nümayiş etdirərək ötən 14 ildə Azərbaycan üçün bir sıra taleyüklü məsələlərin həllinə nail olmuşdur. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi nəhəng transmilli layihələr ölkəmizin siyasi və iqtisadi mövqelərini yüksək dərəcədə möhkəmləndirmişdir. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə həyata keçirilən tədbirlər respublikamızın,bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir. 2006-cı ilin noyabrında Avropa İttifaqı ilə enerji sahəsində anlaşma memorandumu imzalamış respublikamız bu gün bütövlükdə MDB və Avropa məkanında Rusiyadan enerji asılılığı olmayan, müstəqil siyasət yeridən dövlətlərdən biridir. Bu fakt özlüyündə Azərbaycanın dünya birliyi üçün önəmini xeyli artırmış, respublikamızın Avratlantik strukturlara inteqrasiya prosesini sürətləndirmişdir.



# Hüseynova Leyla



"Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz. " deyib Əbül Fərəc. Leyla da təhsilə başladığı ilk gündən bu aforizmi özü üçün əsas götürməyə başlayıb. 6 nəfərlik geniş bir ailədə doğulan Leyla 2000-ci il noyabrın 25 də Saatlı rayonunda dünyaya göz açıb. Sürücü işləyən atası qızının və ailəsinin ehtiyaclarını artıqlaması ilə ödəməyə çalışıb. Və buna da nail olub. Anası isə evdar xanım olduğu üçün hər zaman uşaqlarının dərsləri ilə məşğul olmağa vaxt ayırıb. Leylanın elmlə ilk tanışlığı 2007 -ci ildə olub. 1-ci sinifə Xırdalan rayon 9 nömrəli məktəbdə başlayan Leyla qısa zaman ərzində müəllimlərinin sevimlisinə çevrilib. Güclü yaddaşı , əzmkarlığı və zəhməti sayəsində dərslərində uğurla irəliləyib. Elə uşaqlığdan bədii kitablara olan marağı onu daha çox oxumağa sövq edirdi. Bu səbəbdəndir ki, məktəb illəri ərzində çoxlu sayda bədii kitablar oxuyub bitirmişdir. 2016 cı ildə müəyyən səbəblərə görə 117 saylı məktəbin 10-cu sinifinə keçib. Ele orta təhsilini bu məktəbdə başa vurduqdan sonra ali məktəblərə imtahan verib. Bədii kitabları nə qədər sevsə də , uşaqlığından bəri riyaziyyat və hesablamalara olan sevgisi, pulları mahir dərəcədə saymaq və diqqətli olmağı onu məhz iqtisadçı olmağına şərait yaratdı. 2018 ci ildə keçirilən qəbul imtahanlarında yüksək nəticə göstərərək həm valideynlərinin , həm də müəllimlərinin başını uca etdi. ən əsası uşaqlığından bəri arzusunda olduğu sənətə yiyələnməyə başlayacaq. 622 balla Aərbaycanın ən prestijli universitetlərindən biri olan Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə fakultəsində Muhasibat uçotu və audit fakultəsinə daxil oldu. Özünün dediyinə görə universitetdə də məktəbdə olduğu kimi istək və həvəslə oxuyub , öz ixtisasına ən yüksək dərəcədə yiyələnəcək. Onun məqsədləri bununla da bitmir. Univeristeti bitirdikdən sonra baş muhasib kimi hər hansı bir böyük şirkət və yaxud təşkilatda çalışmaq istəyir. O deyir ki, istək , bacarıq və həvəs olduqdan sonra hər şeyi bacara bilər. O məqsədləri uğrunda inamla irəliləyir.

**Məqsəd yoxdursa, heç nə edə bilməzsən.**

**Məqsəd dəyərsizdirsə, böyük bir iş görə bilməzsən. (Deni Didro)**

# Mamedov Rəsul



“Həyatımızın mühüm sahəsi olan məktəb, müəllim və şagirdlər haqqında nə qədər yazılsa da, deyilsə də azdır. Məktəbli olmaq, müəllimlərin şagirdlərə elmi biliklər öyrətməsi, hər bir şagirdin və müəllimin qəlbində dərin izlər buraxır. Belə şagirdlərdən biri də Mamedov Rəsul Pərviz oğludur.” - deyə bildirib Rəsulun müəllimlərindən biri. Ele bu sözlərdən Rəsulun necə bir şagird olmağı az çox məlum olurdu əslində.

Rəsul 2009-cu il sentyabrın 21 də Bakı şəhərində ziyalı bir ailədə anadan olub. Daima ailəsinin göz nuru olan Rəsul məktəbə başladığı gündən etibarən də müəllimlərinin sevimlisi olmağı bacarıb, öz istedad və bacarığı ilə. 2015 -ci ildə Kəlbəcər rayonu 20 saylı tam orta məktəbdə 1 -ci sinifə başlayıb. Müəllimləri və sinif yoldaşları ilə çox səmimi və tərbiyyəli munasibət qurduğuna görə hamı ondan çox razıdır. Dərslərində əlaçı olmaqla yanaşı həm də idmanla çox maraqlanır. Atası Pərviz bəyin idman müəllimi olmasında bunda böyük rolu var. Kinqboksla məşğul olur. Hal -hazırda Rəsul 4-cü sinifdə oxuyur. Onun ən böyük arzusu isə gələcəkdə vətəninə, dövlətinə layiq polis olmaqdır. Ondan bu barədə soruşduqda isə uşaqlıqdan bəri bu arzuda olduğunu və bu məqsədə çatmaq üçün lazım olan hər şeyi edəcəyini dedi. Biz ondakı bu qətiyyəti gördükdən sonra əminik ki, Rəsul gələcəkdə ən yaxşı və vicdanlı polislərimizdən biri olacaq.

4 nəfərlik ailədə böyüyən Rəsulun anası da hər zaman oğlunun dərslərinə, tərbiyyəsinə diqqətlə yanaşıb. Təzəgül xanım da həmçinin azərbaycan dili və ədəbiyyat müəllimidir. Rəsulla eyni məktəbdə oxuyan bacısı Fidan da hal hazırda 6-cı sinif şagirdidir. Müəllimlərinin sözünə görə hər iki bacı və qardaş məktəbdə öz ağıl və bacarıqları ilə seçilirlər.

Rəsulun ailəsi və yaxınlarının onun üçün bitməz-tükənməz xoş sözləri və arzuları var. Onlardan biri də belədir: - “Rəsul üçün ən böyük arzumuz odur ki, necə ki indi ailəsi onunla fəxr edir, gələcəkdə də əldə edəcəyi uğurları ilə ailəsini və onu sevən hamının fəxri olsun. Rəsulu həyat hec bir zaman sındırmasın, hər zaman həyat yolları onun üçün enişdən-yoxuşdan deyil, hamarlıqdan ibarət olsun. Yurdunun, vətəninin , ata-anasının adına layiq bir övlad olsun.



# Babayev Kamal



***Uşaq olanda anam mənə deyirdi ki, əsgər olsan, general olacaqsan, keşiş olsan, papalığa qədər yüksələcəksən. Amma mən rəssam oldum və Pikasso olaraq qaldım.***

***(Pablo Pikasso)***

Uşaqlar daim irəliyə ən yaxşı olana doğru can atır. Ana isə onu yönləndirə bilən ən güclu ən ülvi varlıqdır. Kamalın uğurlarının arxasında da daima anasının dəstəyi vardır. Doğulduğu andan etibarən ona hər zaman ən yüksək tərbiyyəni verən, onu dəstəkləyən anası olub. Çünki hər bir övlad üçün anadan yaxşı tərbiyyəçi ola bilməz.

Babayev Kamal Əmiraslan oğlu 2010-cu ildə dekabrın 23 də dünyaya gözlərini açıb. Doğulduğu andan ailəsinin sevimlisi olan balaca balamız 2017 -ci ildə Binəqədi rayonu 306 saylı məktəbin 1-ci sinifinə qədəm qoyub. Elmə atıldığı gündən öz bacarığını göstərməyə başlayan Kamal oxuyub öyrənmə bacarığı ilə sinif yoldaşlarından fərqlənməyi bacarır. Tez bir zamandan qavrama və tənbəllik etmədən oxuma istəyi onu hər zaman bir addım irəliyə çəkir bu kiçik yaşında. Bu səbəbdəndir ki, o artıq sinif üzrə əlaçıdır. Müəllimləri və sinif yoldaşları da həmçinin Kamal haqqında çox müsbət fikirdədirlər. Onun dərslərinin çox yaxşı olmağına görə əlaçılıq üzrə Fəxri Fərmanları da var. Kamal məktəb dərslərini çox yaxşı oxumaqla yanaşı həm də fərqli maraq dairəsinə sahibdir. Belə ki o, sazda ifa etməyi çox sevir və hər gün daha yaxşı olmağa can atır. Sanki ele onun bu balaca ruhu musiqi üçün yaradılıb. Kamal həmçinin qiraət etmək və gözəl rəsmlər cəkməyi də bacarır. Bəlkə də öz üzərində işləməklə gələcəyin məşhur rəssəamlarından biri ola bilər bu istedadla. Amma onun istək və arzusu tam başqa yönədir. Kamalla söhbətimiz zamanı məlum oldu ki, əslində o gələcəkdə güclü bir hüquqşünas olmaq istəyir. O bildirdi ki, bu yolla haqq ədaləti bərpa etmək istəyir. Biz də onun bu arzusunda uğurlar arzulayırıq. Və inanırıq ki, məqsədyönlü olmaqla Kamal hər şeyi bacaracaq.

# Valiyeva Parvina



***Qız uşağını gözəlcə tərbiyə edib,***
***Allahu Təalanın verdiyi nemətlərlə bolluq içində yedirər, geydirsə, o qız uşağı onun üçün bir bərəkət olar,***
***Cəhənnəmdən qurtulub asanca Cənnətə girməsinə vəsilə olar.***
***(Taberani)***

3 bacının ən böyüyü olan Pərvinə öz ağlı, şirinliyi və istedadı ilə hər zaman özünü sevdirməyi bacarıb. Pərvinə 2004-cu ildə aprelin 12- də bir yaz səhərində Xırdalan şəhərində anadan olub. Ailənin ilk göz nuru olan Pərvinə yaxınlarının da sevimlisinə çevrilib. Məktəbə getməyə can atan, hər zaman anasından rəqəmləri hərfləri öyrənməyə tələsən Pərvinə nəhayət ki, 2012-ci ildə bu arzusuna qovuşur. Kəlbəcər rayon 20 saylı tam orta məktəbdə 1-ci sinifə başlayır. Elə bu gündən də onun uğurlu təhsil yolu başlayır. Dəsrlərində hər zaman müvəffəqiyyətli olan Pərvinə, oxumağı və yazmağı tez bir zamanda öyrənir. Sinif üzrə əlaçı olub ailəsini də sevindirir. Onun xarici dilləri öyrənməyə xüsusi marağı da var. Əsasən ingilis dilini çox xoşlayır və böyük istəklə öyrənməyə can atır. Özünün dediyinə görə gələcəkdəki arzusu inigilis dili müəllimi olmaqdır. İlk öncə özü dərindən mənimsəyib, ali məktəbə qəbul olub , müəllimlik peşəsinin incəliklərinə agah olduqdan sonra özü də şagirdlər yetişdirçək arzusundadır.

Ailədə 3 bacıdırlar. Atası İdris bəy usta işləyərək , halal alın təri ilə qızlarının və ailəsinin ehtiyaclarını ödəyir. Anası Yeganə xanım da bu yolda ailəsinə dəstəyini əsirgəmir. Bacılarl da özü kimi ağıllı və bacarıqlı olduqlarından hər zaman ata və analarının başını uca edirlər.

Pərvinə dərslərində əlaçı olmaqla yanaşı, həm də çox gözəl şeir demək qabiliyyətinə malikdir. Hal- hazırda 6-ci sinifdə oxuyan balaca qızımız çox fəal və aktif şagirddir. 5 nəfərlik ailədə sevgi və qayğı ilə böyüdülən Pərvinə ətrafa , cəmiyyətə qarşı da xüsusi hörməti ilə seçilir. Ailəsinin ən böyük arzusu qızlarının yaxşı təhsil almağıdır. Onların oxumağı və öyrənməyi üçün hər bir şəraiti yaradırlar. Bu səbəbdəndir ki, Pərvinə də daima ata və anasının onunla fəxr etməsini, başı uca olmasını istəyir. Inanırıq ki , bu gözəl və tərbiyyəli qızımızın həyatı hər daim uğur və nailiyyət dolu keçsin. Məqsəd və arzuları hər zaman önündə çıraq kimi yol açsın.



# Iqbal Hüseyinov



**Dünyada nə qədər kitab var belə**
**Çalışıb əlləşib gətirdim ələ**
**Oxudum, oxudum, sonra da vardım**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
**(Nizami Gəncəvi)**

İqbal həyatında bu sözləri özünə şüar seçərək ömür yollarında irəli addımlamağa başlayıb. Həm elm həm idmanda olan uğurları bunu göstərir ki, daima öz üzərində çalışıb , irəli getməyə can atan gənclərimizdən biridir. İqbal Hüseyinov 18 oktyabr 2001-ci ildə Sumqayıtda anadan olub. Sanki doğulanda alnına yazılmışdı onun kiçik yaşlarından olacaq uğurları. 2007 -ci ildə Masazırda Laçın rayonu 15 saylı tam orta məktəbin birinci sinifinə başlayıb. Məktəbi əla oxumaqla yanaşı uşaqlıqdan idmana olan həvəsi ilə seçilib. İqbal uşaq yaşlarından başlayaraq güləş və qaydasız döyüş idman növləri ilə məşğul olurdu. Qaydasız döyüş üzrə 2 dəfə Azərbaycan çempionu olub, dəfələrlə müxtəlif turnirlərdə iştirak etməklə fərdi qalibiyyətlər və mükafatlar qazanıb. İqbal həmçinin güləş üzrə də Azərbaycan çempionatında iştirak edib, 2-ci və 3- cu yerlərdə qərarlaşıb. Bu az yaşına rəğmən əldə etdiyi uğurlar onun gələcəkdə də necə bir şəxsiyyət kimi formalaşacagının əlamətləridir.

2013 -cü ildə müəyyən səbələrdən Kəlbəcər rayon 126 saylı tam orta məktəbin 6-cı sinifinə başlayır. 2018 ci ildə isə ele həmin məktəbin 11-ci sinifini bitirir. DİM-in təşkil etdiyi imtahanlar da da müvəffəqiyyətlə nəticə göstərib, ali məktəbə qəbul olur. İqbal Azərbaycanın ən prestijli universitetlərindən biri olan Azərbaycan Dövlət İqtisad Univeristetinin Dünya iqtisadiyyatı fakultəsinə daxil olub. Hal- hazırda tələbəliyin dadını çıxarmaqla yanaşı , daima öz üzərində çalışır və daha çox nailiyyətlər əldə etmək istəyir. Atası Qaçay bəy və anası Əfsanə xanımın ən böyük arzularından biri övladlarının hər bir uğuruna ürəklə sevinmək və onun arxasında dayanmaqdır. Uşaqlığından bəri qoçaqlığı , əzmi və iradəsi ilə seçilən İqbal gələcəkdə də hər zaman inkişaf edəcəyini deyir.

Onun yaxınları, qohumları, ailəsi, bir sözlə onu tanıyan hər kəs düşünür ki, “İqbal çalışqanlığı, istedadı və zəkasının gücü və səyləri nəticəsində qazandığı uğurların davamı olaraq, gələcəkdə də Azərbaycanın ən hörmətli ziyalılarından biri olacaq.” Biz də ümid edir və arzulayırıq ki, İqbal Azərbaycanın adını layiqincə yüksəklərdə ucaldacaq ən fəal gənclərindən olsun.

# Umudzadə İbrahim



**"Qüdrətli olmaq zəifi öz səviyyənə qaldıra bilməkdir".**
**(Rabindranat Taqor)**

İnsanın həyatındakı ən böyük düşməni zamandır cünki, zaman həmişə bizim əksimizə işləyir. Çalışmaq lazımdır ki, hər şeyi zamanında edək, necə deyiblər- " Əldən qalan əlli il qalar " ...eləcə də öyrənmək.Öyrənmək də, təhsil almaq da, elmlə məşğul olmaq da zamanında olarsa bəhrəsi daha da gözəl olar. Çalışmaq lazımdır ki, elmə də zamanında yiyələnək, çünki, bəhrəsi bizim gələcək həyatımız deməkdir.Bunu başa düşən və zamanla yarışıb çox şey əldə etməyə çalışan şagirdimiz də Umudzadə İbrahimdir.

Umudzadə İbrahim Elçin oğlu 29 mart 2009-cu ildə Sumqayıt şəhərində anadan olmuşdur.2015-ci ildə Laçın rayon 21 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur.Hal - hazırda həmin məktəbin 4-cü sinif şagirdidir.İbrahim elmə, savada çox böyük marağı olan bir şagirddir.Məktəbə başladığı ilk vaxtlardan dərslərinə göstərdiyi o sevgi hissi onu getgedə önə çəkdi və sinifdə əlaçılıq pilləsinə qaldırdı.İbrahim sinifdə müəllimələrinin ən sevimli şagirdlərindən biridir.Onun ən sevdiyi fənlər Azərbaycan dili, Riyaziyyat, İngilis dili və İnformatika; ən sevimli müəllimələri isə Əfsanə müəllimə, Şəlalə müəllimə və Rəhimə müəllimədir.İbrahim qeyd edir ki, dərslərini daha da yaxşı oxuyub gələcəkdə vəkil olmaq isdəyir. Boş vaxtlarını kitab oxuyumaq, oynamaq və televizora baxmaqla keçirən İbrahimin ailəsi 3 nəfərdən ibarətdir.

Ata-Umudov Elçin Vahid oğlu.Sürücüdür.

Ana-Mirzəyeva Samirə Fətiş qızı.-Tibb məntəqəsində tibb bacısı kimi fəaliyyət göstərir.

Biz də öz jurnalımız adından İbrahim balamıza uğurlar arzu edirik və nailiyyətlərinin daha da bol olmasını diləyirik.



# Azərbaycanı dünyaya tanıdan milli iftixarımız



***Əsrlər boyu dini dözümlülüyün, tolerantlığın əsas məkanlarından biri kimi tanınan Azərbaycan qədim tarixi, zəngin mədəniyyəti və keçdiyi inkişaf yolu ilə diqqətdədir. Bu dəyərlərin dünya miqyasında daha geniş sferada təqdimi dünyanın ölkəmizə diqqətini daha da artırır. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan dəyərlərinin, tarixi reallıqlarının təbliği istiqamətində gördüyü işlər bu diqqət və marağın genişlənməsində önəmlidir. "Mədəniyyət və incəsənət xalqları, insanları bir araya gətirmək, daha yaxşı anlamaq üçün ən gözəl vasitədir" - deyən Mehriban xanım Əliyeva milli dəyərlərimizi irimiqyaslı layihələri çərçivəsində həyata keçirir. Həqiqətən də, mədəniyyət və incəsənət ölkə həqiqətlərinin təqdimində bir açardır. Belə ki, həm sənət nümayiş etdirilir, həm də Azərbaycan həqiqətləri sənətin müxtəlif növləri vasitəsi ilə dünya ictimaiyyətinə təqdim olunur. İncəsənətin imkanları sonsuzdur və o, heç bir məhdudiyyət tanımır.***

Fondun təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində reallaşan şaxəli layihələr dünya xalqlarını Azərbaycana daha da yaxınlaşdırır. Müxtəlif məzmunlu tədbirlər çərçivəsində həyata keçirilən layihələrdə Mehriban xanım Əliyeva bir ideyanı gerçəkləşdirir: Azərbaycanı təbliğ etmək. Fondun fəaliyyəti dövrünə nəzər salsaq, nə qədər sayda bu məqsədlə layihələrin həyata keçirildiyinin şahidi olarıq. Təkcə son ayda reallaşan tədbirlərin əsasında Azərbaycanın panoraması kifayət qədər aydın görünüb. Belə ki, Parisdə Heydər Əliyev Fondunun və "Baku" jurnalının ingilisdilli versiyasının dəstəyi və təşkilatçılığı ilə "Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" sərgisi fondun Azərbaycanın dünyada daha yaxından tanıdılması istiqamətində həyata keçirdiyi tədbirlər sırasında xüsusi əhəmiyyət kəsb edir. Parisin məşhur Salomon de Rotşild malikanəsində açılan bu sərgi Heydər Əliyev Fondu tərəfindən mədəniyyətimizin təbliğinin prioritet istiqamət olduğunu bir daha təsdiqlədi. Sərgi Şərq ilə Qərb mədəniyyətlərinin qovuşmasından ilhamlanan müasir Azərbaycan incəsənətinin uğurlu təqdimatı kimi qiymətini aldı. Sərgidə nümayiş olunan əsərlərdəki dinamizm və yaradıcılıq ruhu bu gün Azərbaycanda baş verənlərin böyük bir hissəsini əks etdirirdi.

Layihələr Fransanın Azərbaycan ilə tanışlıq coğrafiyasının genişlənməsində əhəmiyyətlidir. Azərbaycan icmasının Fransada az olmasına baxmayaraq, çox qədim tarixə malik ölkəmiz barədə müəyyən təsəvvürlər əldə etdiklərini və fransızların Azərbaycanla tanışlığa xüsusi diqqət ayırırlar. Onu da bildirək ki, Fransanın müxtəlif ali məktəblərində yüzlərlə azərbaycanlı gənc təhsil alır, Qafqazda ilk dəfə olaraq Bakıda fransız məktəbinin təməli qoyulub.

Fransada sərgilər, festivallar və konsertlərin təşkili Azərbaycanı təkcə yeraltı sərvətləri ilə deyil, həm də bu yeraltı sərvətlərdən daha zəngin tarixi-mədəni irslərə malik ölkə olduğunu dünya ictimaiyyətinə təqdim edir. Ölkəmizi Avropada, o cümlədən, dünyanın mədəniyyət beşiyi hesab edilən Fransaya təqdimi, təbii ki, böyük sənətin üzə çıxarılması deməkdir. Belə məzmunlu tədbirlər Azərbaycanı təkcə neft və qazla zəngin bir ölkə kimi tanıtmır. Ölkəmizin qədim tarixə, zəngin mədəniyyətə malik olduğunu göstərir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Vatikanda "Azərbaycanın zəngin incilərinə tarixi baxış" adlı sərginin əhəmiyyətinə gəlincə bildirək ki, Azərbaycan ilk müsəlman ölkəsidir ki, Vatikanda mədəni dəyərlərinin nümayiş olunduğu sərgini təşkil edib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə təntənəli açılışı olan sərginin əhəmiyyətini artıran ən mühüm cəhət də məhz bu amillə bağlıdır.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında müstəsna xidmətləri ilə seçilir.

Heydər Əliyev Fondunun geniş humanitar missiyası, demək olar ki, geniş coğrafi məkanı əhatə edib. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində fondun Azərbaycan həqiqətlərinin təqdimi istiqamətində gördüyü işlərə münasibət yüksəkdir.

Bu tədbirlər, layihələr Azərbaycanın milli dəyərləri, mədəniyyəti, incəsənəti və tarixinin təbliği ilə yanaşı, ölkələrarası mədəniyyət və qarşılıqlı münasibətlərin inkişafında önəmlidir.

# ARZU HÜSEYNOVA



Kiminsə həyatı boyu uşaq kimi qalmayıb, ciddi, ağıllı biri olsa dünyanın çox işinə yarayar və yaxşı vətəndaş ola bilər, amma dahi ola bilməz. Əgər, siz uşaqlıqda dəcəllik hissini öldürsəniz heç vaxt müdrik insan yetişdirə bilməzsinin.

Uşaqlıq həyatın ən mühüm, ən ayrılmaz, ən unudulmaz hissəsidir. Onu ən yaxşı şəkildə yaşamaq lazımdır. Çünki uşaqlığın hər anın böyüyəndə əzbərə xatırlayırıq. Bu səbəbə görə də hər bir valideyin kimi Arzunu da ailəsi göz nuru kimi böyüdür. Onun hər istəyini ailəsi özü üçün məqsəd olaraq qəbul edir.

Hüseynova Arzu Xanoğlan qızı 16 aprel Binəqədi rayonunda anadan olmuşdur. 2014cü ildə Qubadlı rayon 1 saylı K. Ə. Mirzəyev adına məktəbin 1ci sinfinə qədəm qoymuşdur. Hal - hazırda həmin məktəbin 5ci sinif şagirdidir. O, dərslərinə çox böyük həvəslə yanaşır. Boş zamanlarında rəsm çəkməyi çox sevir. Onun ən çox sevdiyi fənn Riyaziyyat, sevimli müəllimәsi isə Pərvanə müəlimədir. Arzunun ailəsi 4 nəfərdən ibarətdir.

Atası - Hüseynov Xanoğlan Allahverdi oğlu, 1986cı il 23 yanvar tarixində Qubadlı rayonunda anadan olub, ustadır.

Anası - Qürbətova Həlimə Adgözəl qızı, 9 dekabr 1983cü ildə Cəlilabad rayonunda anadan olmuşdur, evdar xanımdır.

Qardaşı - Hüseynov Kənan Xanoğlan oğlu 2010cu il 17 mart tarixində nadan olmuşdur.

Bizdə Arzuya gələcəkdə məktəbi müvəffəqiyyətlə bitirib ali məktəbə qəbul olmağı və gələcəkdə valideyinlərinə, vətəninə və millətinə layiqlin övlad omağı arzu edirik.



# BAYRAMOV ELGÜN





Elm yarandıqdan sonra hər şey zaman-zaman onun qiyafətinə bürünüb səliqə -səhman tapdı və günlərin birində o özünə də öz donluğundan paltar biçmək fikrinə düşdü : elm haqqında elm yarandı.

Müasir elm və tərəqqi elə bir səviyyəyə gəlib çatmışdır ki, nə orta, nə də ali məktəblər insana onun həyatının axırına kimi bütün bilik və elmi verə bilmir. Elə buna görə də insan yaşadığı həyat boyu daima axtarışda olmalı və yeni bilirlər əldə etməlidir, çünki, yenilik təzə yaşam, təzə nəfəs deməkdir. Bayramov Elgün də daim axtarışda olan, yeni biliklər əldə etməyə çalışan bir şagirddir.

Bayramov Elgün Vüqar oğlu 22 oktyabr 2007-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Gəlişi ilə ailəsinə sevinc, xoşbəxtlik gətirən Allahın bu şirin payı ailəsi üçün bir ümid işığı olmuşdur. Ailənin tək övladı olan Elgün üçün, valideyinləri hər zaman əllərindən gələnin ən artığını etməyə çalışıblar. 2013cü ildə Kəlbəcər rayon 69 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyan Elgün, hal-hazırda həmin məktəbin 6-cı sinfində oxuyur. Dərslərində olduqca müvəffəqiyyətli və şagirdlər arasında həmişə seçilən, fəal biri olmuşdur. Elgünün ən çox sevdiyi fənlər, Azərbaycan dili və Riyaziyyatdır, ən sevdiyi müəllim isə Sevda müəllimə, Aynur müəllimə və Gülər müəllimədir. Onun məqsədi dərslərini yaxşı oxuyaraq təhsilini ali məktəbdə davam etməkdir. Elgün istəyir ki, Polis Akademiyasına qəbul olsun və bunun üçün səylə çalışır. Boş vaxtlarında isə saz ifa etməklə məşğul olan Elgünün ailəsi 3 nəfərdən ibarətdir.

Atası - Bayramov Vüqar Əli oğlu

Anası - Bayramova Günel Kəlbəcər rayon 69 saylı tam orta məktəbdə müəlimə işləyir.

Bizdə öz növbəmizdə Elgünə həyat yolunda müvəffəqiyyətlər və uğurlar arzu edir və inanırıq ki, ailəsi hər zaman onunla fəxr edəcək, Elgün daima valideyinlərinin başını uca edəcək.

# NADİROV ƏMRAH





**“ Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz. ”**

***HEYDƏR ƏLİYEV***

Loğman : Hikmət sahibinin dediyi kimi: “Övladım ! vaxtının bir hissəsini elm öyrənməyə ayır! Çünki heç bir şey elmdən uzaqlaşmaq kimi insan ömrünü məhv etmir. Əmrah da çox gözəl başa düşür ki, biliyi olmasa, elmli olmasa həyatda daima geridə qalacaq. Buna görə də çalışır ki, oxusun bilik qazansın və daim öndə olsun. Və bu yolda da o həm ailəsinin arzusunu yerinə yetirmiş olur, həm də özünə sütunları möhkəm bir gələcək qurur.

Nadirov Əmrah Bayram oğlu 1 iyul 2002 ci ildə Ağcəbədi rayon Hüsülü kəndində anadan olmuşdur. 2008-ci ildə Laçın rayon 21 nömrəli tam orta məktəbinin 1-ci sinfinə qəbul olmuşdur. Hal- hazırda həmin məktəbin 11-ci sinif şagirdidir. o məktəbə qədəm basdığı ilk gündən dərslərinə olan həvəsi, çalışqanlığı, məsuliyyəti və nümunəvi davranışı ilə bütün müəllimlərinin sevimli şagirdinə çevrilmişdir. Sinifin ən fəal və yaxşı oxuyan şagirdlərindən olan Əmrahın fikiri məktəbi əla qiymətlərlə bitirib ali məktəbə qəbul olmaqdır. Əmrahın ən çox sevdiyi fənlər Tarix, Azərbaycan dili, İngilis dili və Riyaziyyatdır. Bu fənləri ona sevdirən təbbi ki, müəllimləri olmuşdur və Əmrah da buna görə öz müəllimlərinə təşəkürünü bildirir. Ramil Rəhimov, Arzu Nəsibova, Təyyar Xankişiyev, Təhminə Məmmədova, Əbilova Şəlalə və iradə muəllimə onun ən sevimli müəllimləridir. Əmrahın məqsədi və arzusu orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Polis Akademiyasına qəbul olmaqdır. Valideynləri də bu yolda ona əllərindən gələn dəstəyi verirlər və o günü böyük səbirsizliklə gözləyirlər. Əmrah həmçinin də musiqi tədbirlərində, konsertlərdə iştirak etmiş, məktəbin açılışında olan tədbirdə də iştirak etmişdir. Boş vaxtlarnı da universitetə qəbul olmaq üçün dərslərin yerinə yetirməklə məşğul olan Əmrah musiqi dinləməklə də yanaşı, adrenalin həvəskari biri kimdə özünə müxtəlif məşğuliyyətlər tapır və vaxtını səmərəli keçirməyə çalışır. Onun ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Nadirov Bayram, ustadır.

Anası- Nadirova Şölə, evdar xanımdır.

Qardaşı-Nadirov Novruz 9-cu sinif şagirdidir.

Bacısı- Nadirova Xədicə 4-cü sinif şagirdidir.

Biz də öz növbəmizdə Əmraha həyat yolunda uğurlar diləyir və millətinə, vətəninə layiqli övlad olmağını arzu edirik.



# NADİROVA XƏDİCƏ



**Hər qab içinə bir şey qoyduqca daralır . Ancaq bilik qabı buna aid deyil, o bilik qoyulduqca genişlənir. İnsanın bildiyi öyrəndiyi şeylər bilmədiyinin müqabilində heç dərəcəsindədir.**

**MƏHƏMMƏD TAĞI SİDQİ**

Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər. Elm öyrənmək heç vaxt gec deyil. Bu sözləri özünə örnək götürub həyatda irəliləməyi özünə məqsəd bilən Xədicə də elmə heyran olmaq, ondan bacardığı qədər bəhrələnmək isdəyir. O yaxşı dərk edir ki, savadsız olmaq insanı yalnızca geriyə atır və həmişə çətinlik yaradır. Xədicənin bu fikriylə də razı olan ailəsi hər zaman onun yanında olur və onu dəstəkləyir.

Nadirova Xədicə Bayram qızı 31 dekabr 2008-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. 2014-cü ildə Novxanı kənd 2 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Xədicə sinif üzrə fəal və əlaçı uşaqlardan biridir və müəllimlərinin sevimlisidir. Valideynlərinin və müəllimlərinin fəxri olan kiçik Xədicə təkcə dərsləri deyil həm də incəsənətə olan marağı ilə ön sıralarda adından bəhs etdirməyi bacarmışdır. Xədicənin piyaninoda gözəl ifa etmək bacarığı var və buna görə fəxri fərmanla təltif olunmuşdur. O həm də qarşısına məqsəd qoymuşdur ki, dərslərini əla oxusun və ali məktəbə qəbul olsun. Xədicənin arzuladığı peşə isə həkim olmaq və vətəninə, xalqına layiqli xidmət göstərməkdir. Onun ən çox sevdiyi fənn Azərbaycan dilidir. Bütün müəllimlərini sevən Xədicənin ən sevimli müəlliməsi isə Jalə müəllimədir. Xədicə boş vaxtlarında dərsləri ilə məşğul olur, həm də gözəl rəsmlər çəkir. Onun ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Nadirov Bayram, ustadır.

Anası-Nadirova Şölə, evdar xanımdır.

Qardaşları Əmrah və Novruz kiçik bacılarına həmişə dəstək olur və onu qoruyurlar.

Biz də öz jurnalımız adından uğurlar arzulayır və diləyirik ki, Xədicə gələcəyin məşhur və öndə gedə həkimlərindən biri olsun. Yolun açıq olsun!

# ƏLİ MƏMMƏDLİ



**Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür.**

***(PLATON)***

Bilik o zaman həqiqi bilikdir ki, hafizə yox düşüncə gücünə əldə edilmişdir. Hər şey serf və xərc olunduqca tükənir və əksilir, amma, elm sert olunduqca həddən ziyadə artır.

Elm zamanla qazanılan, kitabların, müəllimlərin, ətrafın vasitəsiylə əldə edilən ucalıqdır. Elmi kiçik görməmək, onu səbrlə, zəhmətlə, kitablara zaman ayıraraq əldə etmək lazımdır. Uşaqlıqdan oxumağa, öyrənməyə çalışan, kitabları çox sevən, dərslərinə həvəsli şagirdlərdən biri də Əlidir.

Əli Məmmədov Elşən oğlu 28 iyul 2005-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. 2012-ci ildə 21 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Əli sinif üzrə əlaçı və fəal şagirdlərdən biridir. O, qısa müddət ərzində müəllimlərinin diqqətini çəkmiş və sevimli şagirdlərinə çevrilmişdir. Əli bütün fənlərini sevir lakin, Xarici dili və Coğrafiya fənlərini xüsusi bir sevgi ilə sevir ona bu və digər fənlərini sevdirən və ən sevimli müəllimələri isə Rəminə müəllimə, Xariqə müəllimə və İradə müəllimədir. Əlinin məqsədi dərslərini əla qiymətlərlə bitirib ali məktəbə qəbul olmaqdır və maliyyə sahəsində irəliləməyi özünə yol seçmişdir. Əli boş vaxtlarında kitab oxuyur, yeni biliklər əldə edir və bəzəndə futbol oynayır . Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Məmmədov Elşən Əhməd oğlu 27 fevral 1974-cü ildə anadan olmuşdurş

Anası- Məmmədova Səbinə Hümmət qızı 3 mart 1981 -ci ildə anadan olmuşdur.

Əlinin bir bacısı var 21 saylı tam orta məktəbin 5-ci sinif şagirdidir.

Biz də öz adımızdan Əliyə gələcək həyatında bol-bol uğurlar arzu edirik, uğurları ilə valideynlərini və müəllimlərini sevindirməsini, vətənə, millətə layiqli vətəndaş kimi yetişməsini arzulayırıq.



# MƏHƏRRƏMLİ ELTAC



**Gələcəkdə peşman olmaq istəmirsənsə, öz ailəni təhsildən məhrum etmə!**

***(Aleksandr Sergeyeviç Puşkin).***

“Təhsil millətin gələcəyidir” deyən Heydər Əliyev Azərbaycanda təhsil sahəsinə həmişə diqqət yetirmiş və ona qayğı göstərmişdir. O, bildirmişdir ki, təhsil nə sənaye, nə kənd təsərrüfatı, nə də ticarətdir. İnsanı daim irəli aparan onun savadıdır. Savadsız insan, çıraqsız ev kimidir. Bilik bir gücdür, elm öyrənmək böyük bir zəhmətdir . Bu gücü özündə tapmaq üçün zəhmətə qatlaşan və bu yolda irəliləməyi özünə məqsəd bilən şagirdlərimizdən biri də Məhərrəmli Eltacdır.

Məhərrəmli Eltac Sərdar oğlu, 2003-cü il aprelin 1-də Daşkəsən rayon Bayan kəndində anadan olmuşdur. 2011- ci ildə Gəncə şəhər Nizami rayon Gülüstan qəsəbəsidə yerləşən Kəlbəcər rayon 69 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olan Eltac, hal - hazırda həmin məktəbin 8b sinfində təhsil alır. Oxuduğu müddət ərzində məktəbin təhsil və ictimai işlərində fəal iştirakına görə dəfələrlə məktəb rəhbərliyi tərəfindən Fəxri fərmanla təltif olunmuşdur. Həmçinin Kəlbəcər rayon Uşaq İncəsənət məktəbində” Xanəndəlik ixtisası” üzrə tam kurs təhsil almışıdır. Eltacın məqsədi daha da yüksək nailiyyətlər əldə etmək, dərslərini yaxşı oxumaq və ali məktəbə qəbul olmaqdır. Məktəb əlaçısı olan Eltacın arzusu gələcəkdə polis olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası - Məhərrəmov Sərdar Məhərrəm oğlu, 16 avqust 1971ci ildə Kəlbəcər rayonunda anadan olmuşdur. Feldşerdir.

Anası - Məhərrəmova Rəna Məhəmməd qızı, kitabxanaçıdır.

Qardaşı - Məhərrəmov Qorqud Sərdar oğlu, Kəlbəcər rayon 69 saylı tam orta məktəbin 10-cu sinif şagirdidir. Kəlbəcər rayon Uşaq İncəsənət məktəbini “Saz ixtisası” üzrə bitirmişdir.

Bizdə, öz növbəmizdə Eltaca gələcək həyatında uğur arzulayır və nailiyyətlərinin bol olmasını diləyirik. Vətəninə, millətinə layiqli övlad olsun və səsi daima ucalardan eşidilsin.

# NADİROV NOVRUZ





**Əgər mən başqalarından uzaqları görə bilmişəmsə , onda bu, yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur.**

**(İSSAK NYUTON)**

Həyatda hər kəs istərki müdrik bir insan olsun , doğru- düzgün qərarlar verə bilsin , uzaq görən ola bilsin.Müdrik insan çox bilən adam deyil , biliyi xeyirlr olan adamdır-.İnsan yaşadığı həyat boyunca daim öyrənməlidir çünki elm dəryadir , o , bitməz və tükənməzdir.Bizim də öyrənməyi qarşısna məqsəd qoyan və bu yolda səylə çalışan şagirdlərimizdən biridə Nadirov Novruzdur.

Nadirov Novruz Bayram oğlu 25 mart 2004-cü ildə Ağcəbədi rayonunda anadan olmuşdur.2011-ci ildə Novxanı kənd 2 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur.Hal-hazırda həmin məktəbin 9a sinif şagirdidir.Məktəbə başladığı ilk günlərdən dərslərə olan marağı onu elmə , savada gedən yolda ilk addımlarını atmağa məcbur edirdi.Bu yolda ona həm müəllimləri , həm də kitabları yoldaşlıq edirdi.Novruzun ən çox sevdiyi fənlər- Azərbaycan dili , Ədəbiyyat, Riyaziyyat , Kimya və Coğrafiya; ən sevimli müəllimləri isə Əminə müəllimə , Günel müəllimə , Pürzan müəllimə və Ülviyyə müəllimədir. Oxuduğu illər ərzində hər zaman fəal və əlaçı olan Novruz bu nailiyyətlərini müəllimlərinə borclu olduğunu deyir. Novruzun məqsədi dərslərini yaxşı oxuyub savadlı biri olmaq və incəsənət üzrə irəliləməkdir. Onun çox gözəl musiqi oxumaq bacarığı var və bu səbəbdən bir çox tədbirlərdə iştirak edib və ifa edib.Boş vaxtlarında dərslərini həll edib hazırlığa gedən Novruzun , musiqi, demək olar ki həyatının hər yerindədir.Novruzun ailəsi 5 nəfərdən ibarətdir.

Atası- Nadirov Bayram , ustadır.

Anası- Nadirova Şölə , evdar xanımdır.

Bacısı- Nadirova Xədicə Novxanı kənd 2 saylı tam orta məktəbinin IV sinif şagirdidir.

Qardaşı- Nadirov Əmrah Novxanı kənd 2 saylı tam orta məktəbinin XI sinif şagirdidir.

Biz də öz jurnalımız adından Novruz balamıza uğurlar arzulayır və gələcəkdə nailiyyətlərinin daha da bol olmasını diləyirik.



# BƏYLƏRZADƏ ŞƏBNƏM



Ağıl köhnəlməyən geyim,bilik tükənməyən mədən kimidir. Ağıl təkcə bilikdə yox, həm də biliyi işə tətbiq etmək bacarığındadır. Az bilən və az düşünən çox danışar. Bir insanın biliyi onu çox bəlalardan saxlayar, çünki, bilikli, təhsilli insan öndəki maneələri evvəlcədən görə bilir və onların həlli yolun axtarmağa başlayır. Bunun da müqabilində bir çox prablemlərdən uzaq qala bilir." Cəlaləddin Ruminin belə bir sözü varki, "Ağıllıdan gələn cəfa,cahillərin vəfasından yaxşıdır." Öz agılına, biliyinə, savadına güvənən və bunu daha da irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Bəylərzadə Şəbnəmdir.

Bəylərzadə Şəbnəm Qabil qızı 14 iyul 2008-ci ildə anadan olmuşdur. 2013-cü il Kəlbəcər rayon 2 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir.Şəbnəm elmə,savada çox marağı olan bir qızdır. Müəllimələri onun haqda çox müsbət fikirlərə sahibdirlər, demək olar ki,ən sevimli şagirdlərindən biri də Şəbnəmdir.Şəbnəm ona tədris olunan bütün fənləri və fənn müəllimlərini çox sevir. Ən sevdiyi fənlər Riyaziyyat və Azərbaycan dili, ən sevimli müəllimələri isə Məmmədova Şəfa və Hüseynova Şəmayə müəllimələrdir. Şəbnəmin arzusu gələcəkdə müəllimə olmaqdır.Özünündə dediyi kimi,müəllimə olma isdəyi sırf ona bu peşəni sevdirən adların çəkdiyimiz müəllimələrdən qaynaqlanır.Biz də öz adımızdan bu peşəni övladlarımıza layiqincə tədris edən və sevdirən müəllimlərimizə təşəkkür edirik!.O boş vaxtlarını kitab oxumaq və televizora baxmaqla keçirir və hobbisi olaraqdan da tarixi şəxsiyyətlər barəsində məlumat toplamaqla məşğul olur.Şəbnəmin ailəsi 4nəfərdən ibarətdir.

Atası-Bəylərov Qabil Əmirxan oğlu Kəlbəcər rayon statistika idarəsinin işçisidir.

Anası-Əliyeva Yeganə Qənbər qızı. Evdar xanımdır. Şəbnəmin bir qardaşı var və hal-hazırda Kəlbəcər rayon 2 saylı tam orta məktəbinin 4-cü sinif şagirdidir.

Biz də öz jurnalımız adından Şəbnəm balamıza bolluca uğurlar arzu edirk və dərslərində nailiyyətlərinin daha da bol olmasını diləyirik.Yolun açıq olsun!






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:

Telefon nömrələri:

(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail.ru

Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri

# TƏHSİL YENİLİKLƏRİ

Xüsusi buraxılış Dekabr 2018-ci il (46)








# EUROHOME

***Müasir dam örtükləri***

Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi

RUUKKI

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı.**
**Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**






---

**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**

Təsisçi:
İsa Əkbərov

Baş redaktor:
Samir Əkbərov

Müxbirlər:
Vəfa Babayeva
Gülarə Mirzəyeva

"Təhsil yenilikləri" qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan Respublikası
Bakı şəhəri, Mətbuat prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib, çap olunmuşdur.

Tiraj - 500

Tel: 070-988-82-83
070-255-78-78